## “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası”na qoşulmaq barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 1969-cu il mayın 23-də Vyana şəhərində imzalanmış “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası”na qoşulsun.

**İlham Əliyev ,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 oktyabr 2017-ci il
777-VQ

## Müqavilələr hüququ haqqında Vyana Konvensiyası

*(23 may 1969-cu il tarixində Vyana şəhərində imzalanmışdır, 27yanvar 1980-cı il tarixində qüvvəyə minmişdir).*

Hazırkı Konvensiyaya Tərəf Dövlətlər,

beynəlxalq münasibətlər tarixində müqavilələrin fundamental rolunu nəzərə alaraq, konstitusiya və sosial sistemlərindəki fərqlərdən asılı olmayaraq beynəlxalq hüququn mənbəyi və dövlətlər arasında dinc əməkdaşlığın inkişaf vasitəsi kimi müqavilələrin artan əhəmiyyətini tanıyaraq,

sərbəst razılıq və vicdanlılıq prinsiplərinin və *pacta sunt servanda* qaydasının hamılıqla tanındığını qeyd edərək,

digər beynəlxalq mübahisələr kimi müqavilələrə aid mübahisələrin də sülh yolu ilə və ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq həll edilməli olduğunu təsdiq edərək,

Birləşmiş Millətlər Təşkilatı xalqlarının ədaləti və müqavilələrdən irəli gələn öhdəliklərə hörməti qorunub saxlamaq üçün şərait yaratmağa dair qətiyyətini xatırladaraq,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində əks olunmuş xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi, bütün dövlətlərin suveren bərabərliyi və müstəqilliyi, dövlətlərin daxili işlərinə qarışmama, güc tətbiqetmə və ya güc tətbiqi ilə hədələməyin qadağan olunması, hamı üçün insan hüquqları və əsas azadlıqlarına hamılıqla hörmət və əməl edilməsi kimi beynəlxalq hüquq prinsiplərini nəzərə alaraq,

hazırkı Konvensiyada müqavilələr hüququnun məcəllələşdirilməsi və mütərəqqi inkişafının Birləşmiş Millətlər Təşkilatının Nizamnamədə göstərilmiş məqsədlərini, xüsusilə beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılmasını, millətlər arasında dostluq münasibətlərinin inkişafını və onlar arasında əməkdaşlığın həyata keçirilməsinə nail olunmasını təşviq edəcəyinə inanaraq, beynəlxalq adət hüququ qaydalarının hazırkı Konvensiyanın müddəaları ilə həll olunmayan məsələləri tənzimləməyə davam edəcəyini təsdiq edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Hissə 1

## GİRİŞ

Maddə 1. **Hazırkı Konvensiyanın tətbiq dairəsi**

Hazırkı Konvensiya dövlətlər arasındakı müqavilələrə şamil olunur.

Maddə 2. **Terminlərdən istifadə**

1. Hazırkı Konvensiyanın məqsədləri üçün:

a) “müqavilə” dedikdə dövlətlər arasında yazılı formada bağlanılan və beynəlxalq hüquqla tənzimlənən, bir sənəddə və ya öz arasında əlaqəli olan iki və ya daha çox sənəddə əks olunmasından və konkret adından asılı olmayaraq beynəlxalq razılaşma başa düşülür;

b) “ratifikasiya”, “qəbuletmə”, “təsdiqetmə” və “qoşulma” dedikdə vəziyyətdən asılı olaraq dövlətin beynəlxalq planda müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə etdiyi, müvafiq adlı beynəlxalq əməl başa düşülür;

c) “səlahiyyət sənədi” dedikdə müqavilə üzrə danışıqlar aparmaq, müqavilənin mətnini qəbul etmək və va onun autentikliyini müəyyən etmək, dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə etmək və ya müqaviləyə münasibətdə hər hansı digər əməli həyata keçirmək üçün dövləti təmsil etmək məqsədilə dövlətin səlahiyyətli orqanının təqdim etdiyi, bir və ya bir neçə nümayəndənin təyin edilməsi barədə sənəd başa düşülür;

d) “qeyd-şərt” dedikdə müqavilənin imzalanması, ratifikasiyası, qəbul edilməsi, təsdiq edilməsi və ya ona qoşulma zamanı dövlət tərəfindən istənilən formada və ya istənilən adla birtərəfli qaydada verilən və müqavilənin müəyyən müddəalarının hüquqi qüvvəsini həmin dövlətə münasibətdə istisna etmək və ya dəyişdirmək məqsədini daşıyan bitərəfli bəyanat başa düşülür;

e) "danışıqlarda iştirak edən dövlət” dedikdə müqavilənin mətninin tərtib və qəbul edilməsində iştirak etmiş dövlət başa düşülür;

f) "razılığa gələn dövlət” dedikdə müqavilənin qüvvəyə minib-minməməsindən asılı olmayaraq müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə etmiş dövlət başa düşülür;

g) “tərəf dedikdə müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə etmiş və müqavilənin ona münasibətdə qüvvədə olduğu dövlət başa düşülür;

h) “üçüncü dövlət dedikdə müqavilənin tərəfi olmayan dövlət başa düşülür;

i) “beynəlxalq təşkilat” dedikdə hökumətlərarası təşkilat başa düşülür.

2. Hazırkı Konvensiyada terminlərin istifadəsinə dair 1-ci bəndin müddəaları istənilən dövlətin daxili qanunvericiliyində onlara verilə bilən terminlərin istifadəsinə və ya mənalara xələl gətirmir.

Maddə 3. **Hazırkı Konvensiyanın tətbiq dairəsinə aid olmayan beynəlxalq razılaşmalar**

Hazırkı Konvensiyanın dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında və ya beynəlxalq hüququn bu cür digər subyektlərinin öz aralarında bağlanılmış beynəlxalq razılaşmalara və va yazılı formada olmayan beynəlxalq razılaşmalara tətbiq olunmaması faktı aşağıdakılara təsir etmir:

a) bu cür razılaşmaların hüquqi qüvvəsinə;

b) hazırkı Konvensiyada müəyyən edilmiş və bu Konvensiyadan asılı olmayaraq beynəlxalq hüquqa əsasən onlara şamil oluna bilən istənilən qaydaların onlara tətbiq edilməsi;

c) bu Konvensiyanın beynəlxalq hüququn digər subyektlərinin də tərəfi olduğu beynəlxalq razılaşmalara əsasən dövlətlərin öz aralarındakı münasibətlərinə tətbiq olunması.

Maddə 4. **Hazırkı Konvensiyanın geriyə qüvvəsinin olmaması**

Hazırkı Konvensiyadan asılı olmayaraq beynəlxalq hüquqa əsasən müqavilələrə şamil oluna bilən və bu Konvensiyada müəyyən edilmiş istənilən qaydaların tətbiqinə xələl gətirmədən, bu Konvensiya yalnız onun müvafiq dövlətlərə münasibətdə qüvvəyə minməsindən sonra bu dövlətlər tərəfindən bağlanılmış müqavilələrə şamil olunur.

Maddə 5. **Beynəlxalq təşkilatları təsis edən və beynəlxalq təşkilat çərçivəsində qəbul edilən müqavilələr**

Hazırkı Konvensiya beynəlxalq təşkilatın təsis aktı olan istənilən müqaviləyə və həmin təşkilatın müvafiq qaydalarına xələl gətirmədən beynəlxalq təşkilat çərçivəsində qəbul edilən istənilən müqaviləyə tətbiq edilir.

## Hissə II
## MÜQAVİLƏLƏRİN BAĞLANILMASI VƏ QÜVVƏYƏ MİNMƏSİ
### Bölmə 1
### MÜQAVİLƏLƏRİN BAĞLANILMASI

Maddə 6. **Dövlətlərin müqavilələr bağlamaq qabiliyyəti**

Hər bir dövlətin müqavilələr bağlamaq qabiliyyəti vardır.

Maddə 7. **Səlahiyyət sənədi**

1. Şəxs müqavilənin mətninin qəbul edilməsi və ya onun autentikliyinin müəyyən edilməsi, yaxud dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığının ifadə edilməsi məqsədləri üçün aşağıdakı hallarda dövlətin təmsilçisi sayılır:

a) müvafiq səlahiyyət sənədini təqdim etdikdə; və ya

b) müvafiq dövlətlərin təcrübəsindən və ya digər şərtlərdən aydın olur ki, onlar həmin şəxsi bu məqsədlər üçün dövlətin təmsilçisi kimi nəzərdən keçirmək və səlahiyyət sənədinin təqdim edilməsini tələb etməmək niyyətində olmuşlar.

2. Aşağıdakı şəxslər öz vəzifələrinə görə və səlahiyyət sənədini təqdim etmək zərurəti olmadan öz dövlətinin təmsilçisi sayılırlar:

a) müqavilənin bağlanılmasına aid olan bütün əməllərin həyata keçirilməsi məqsədi üçün - dövlət başçıları, hökumət başçıları və xarici işlər nazirləri;

b) akkreditə edən dövlət və akkreditə olunduqları dövlət arasında müqavilənin mətninin qəbul edilməsi məqsədi üçün - diplomatik nümayəndəliklərin rəhbərləri;

c) beynəlxalq konfransda və ya beynəlxalq təşkilatda, yaxud onun orqanlarından birində müqavilənin mətninin qəbul edilməsi məqsədi üçün - dövlətlər tərəfindən həmin konfrans, təşkilat və ya orqana akkreditə olunmuş nümayəndələr.

Maddə 8. **Səlahiyyətsiz həyata keçirilmiş əməlin sonradan təsdiq edilməsi**

7-ci maddəyə əsasən dövləti təmsil etmək səlahiyyəti olmayan şəxs tərəfindən həyata keçirilən müqavilənin bağlanılmasına aid hər hansı əməl, sonradan həmin dövlət tərəfindən təsdiq edilmədiyi təqdirdə, hüquqi nəticə doğurmur.

Maddə 9. **Mətnin qəbul edilməsi**

1. 2-ci bənddə nəzərdə tutulmuş hal istisna olmaqla, müqavilənin mətni onun tərtib edilməsində iştirak edən bütün dövlətlərin razılığı əsasında qəbul edilir.

2. Dövlətlər eyni səs çoxluğu ilə başqa qayda tətbiq etmək üçün qərar vermədiyi təqdirdə, müqavilənin mətni beynəlxalq konfransda səsvermədə iştirak edən və səs verən dövlətlərin üçdə iki hissəsinin səs çoxluğu ilə qəbul edilir.

Maddə 10. **Mətnin autentikliyinin müəyyən edilməsi**

Müqavilənin mətni aşağıdakı hallarda autentik və yekun hesab olunur:

a) həmin mətndə nəzərdə tutula bilən və ya onun tərtib edilməsində iştirak edən dövlətlər tərəfindən razılaşdırıla bilən prosedura əsasən; və ya

b) bu cür prosedur olmadığı təqdirdə, bu dövlətlərin nümayəndələri tərəfindən müqavilənin mətninin və ya bu mətni özündə ehtiva edən konfransın yekun aktının imzalanması, *ad referendum* imzalanması və ya paraflanması ilə.

Maddə 11. **Müqavilənin məcburiliyinə razılığın ifadə olunması vasitələri**

Dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı imzalama, müqaviləni təşkil edən sənədlərin mübadiləsi, ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma, yaxud razılaşdırılan istənilən digər vasitə ilə ifadə oluna bilər.

Maddə 12. **İmzalama yolu ilə müqavilənin məcburiliyinə razılıq**

1. Aşağıdakı hallarda dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı müqavilənin dövlətin nümayəndəsi tərəfindən imzalanması ilə ifadə olunur:

a) müqavilənin özündə imzalamanın bu cür qüvvəyə malik olacağı nəzərdə tutulur;

b) başqa cür müəyyən edilmişdir ki, danışıqlarda iştirak edən dövlətlər imzalamanın bu cür qüvvəyə malik olacağı barədə razılığa gəlmişlər; və ya

c) dövlətin imzalamaya bu cür hüquqi qüvvə vermək niyyəti onun nümayəndəsinin səlahiyyət sənədindən irəli gəlir və ya danışıqlar zamanı ifadə edilmişdir.

2. 1-ci bəndin məqsədləri üçün:

a) danışıqlarda iştirak edən dövlətlərin bu cür razılığa gəldiyi müəyyən olunduğu təqdirdə, mətnin paraflanması müqavilənin imzalanması hesab olunur;

b) dövlətin nümayəndəsi tərəfindən müqavilənin *ad referendum* imzalanması həmin dövlət tərəfindən təsdiq edildiyi təqdirdə, müqavilənin yekun imzalanması hesab olunur.

Maddə 13. **Müqaviləni təşkil edən sənədlərin mübadiləsi yolu ilə müqavilənin məcburiliyinə razılıq**

Dövlətlərin öz aralarında mübadilə olunan sənədlərdən ibarət olan müqavilənin onlar üçün məcburiliyinə razılığı aşağıdakı hallarda bu mübadilə ilə ifadə olunur:

a) bu sənədlər onların mübadiləsinin bu cür qüvvəyə malik olacağını nəzərdə tutur; və ya

b) başqa cür müəyyən edilmişdir ki, dövlətlər bu sənədlər mübadiləsinin bu cür qüvvəyə malik olacağı barədə razılığa gəlmişlər.

Maddə 14. **Ratifikasiya, qəbuletmə və ya təsdiqetmə yolu ilə müqavilənin məcburiliyinə razılıq**

1. Aşağıdakı hallarda dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı ratifikasiya ilə ifadə olunur:

a) müqavilə bu cür razılığın ratifikasiya yolu ilə ifadə olunmasını nəzərdə tutur;

b) başqa cür müəyyən edilmişdir ki, danışıqlarda iştirak edən dövlətlər ratifikasiyasının tələb olunduğu barədə razılığa gəlmişlər;

c) dövlətin nümayəndəsi müqaviləni ratifikasiya şərtilə imzalamışdır; və ya

d) dövlətin müqaviləni ratifikasiya şərtilə imzalamaq niyyəti onun nümayəndəsinin səlahiyyət sənədindən irəli gəlir və ya danışıqlar zamanı ifadə edilmişdir.

2. Dövlətin müqavilənin onun üçün məcburiliyinə dair razılığı ratifikasiyava tətbiq edilən şərtlərə oxşar şərtlərlə qəbuletmə və ya təsdiqetmə ilə ifadə olunur.

Maddə 15. **Qoşulma yolu ilə müqavilənin məcburiliyinə razılıq**

Aşağıdakı hallarda dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı qoşulma ilə ifadə olunur:

a) müqavilə dövlət tərəfindən bu cür razılığın qoşulma yolu ilə ifadə olunmasını nəzərdə tutur;

b) başqa cür müəyyən edilmişdir ki, danışıqlarda iştirak edən dövlətlər bu cür razılığın həmin dövlət tərəfindən qoşulma yolu ilə ifadə oluna bilinəsi barədə razılığa gəlmişlər;

c) bütün tərəflər bu cür razılığın həmin dövlət tərəfindən qoşulma yolu ilə ifadə oluna bilməsi barədə sonradan razılığa gəlmişlər.

Maddə 16. **Ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma sənədlərinin mübadiləsi və ya saxlanca verilməsi**

Müqavilədə başqa hal nəzərdə tutulmadığı təqdirdə, aşağıdakı hallarda ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma sənədləri dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığını təşkil edir:

a) onların razılığa gələn dövlətlər arasında mübadilə edilməsi;

b) onların depozitariyə saxlanca verilməsi; və ya

c) bu cür razılığa gəldikləri təqdirdə, razılığa gələn dövlətlərin və ya depozitarinin bu barədə məlumatlandırılması.

Maddə 17. **Müqavilənin bir hissəsinin məcburiliyinə razılıq və müxtəlif müddəalarının seçilməsi**

1. 19-23-cü maddələrə xələl gətirmədən, dövlətin müqavilənin hissəsinin onun üçün məcburiliyinə razılığı yalnız müqavilənin buna icazə verdiyi və ya digər razılığa gələn dövlətlərin bu barədə razılığa gəldikləri təqdirdə hüquqi qüvvəyə malikdir.

2. Dövlətin müxtəlif müddəaları arasında seçim etməyə icazə verən müqavilənin onun üçün məcburiliyinə razılığı yalnız bu razılığın hansı müddəalara aid olduğunun aydın şəkildə bilindiyi təqdirdə hüquqi qüvvəyə malikdir.

Maddə 18. **Müqavilənin qüvvəyə minməsinə qədər müqavilənin obyekt və məqsədinin heçə endirilməməsi öhdəliyi**

Dövlət aşağıdakı hallarda müqavilənin obyekt və məqsədini heçə endirə biləcək əməllərdən çəkinməlidir:

a) müqavilənin tərəfi olmamaq barədə niyyətini aydın şəkildə bildirənə qədər, ratifikasiya, qəbul və ya təsdiq edilməli olan müqaviləni imzalamış və ya müqaviləni təşkil edən sənədləri mübadilə etmişdir; və ya

b) müqavilənin qüvvəyə minməsinə qədər və bu cür qüvvəyə minmənin lüzumsuz gecikməməsi şərtilə müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə etmişdir.

## Bölmə 2
## QEYD-ŞƏRTLƏR

Maddə 19. **Qeyd-şərtlərin tərtibi**

Dövlət müqavilənin imzalanması, ratifikasiyası, qəbul edilməsi, təsdiq edilməsi və ya ona qoşulma zamanı, aşağıdakı hallar istisna olmaqla, qeyd-şərt tərtib edə bilər:

a) bu qeyd-şərt müqavilədə qadağan edilir;

b) müqavilə bu qeyd-şərtin deyil, yalnız müəyyən qeyd-şərtlərin edilə bilməsini nəzərdə tutur; və ya

c) “a” və “b” yarımbəndlərinin tətbiq dairəsinə düşməyən hallarda, qeyd-şərt müqavilənin obyekt və məqsədi ilə ziddiyyət təşkil edir.

Maddə 20. **Qeyd-şərtlərin qəbulu və onlara etiraz**

1. Müqavilədə aydın şəkildə icazə verilən qeyd-şərt, müqavilədə bu cür qəbul nəzərdə tutulmadığı təqdirdə, razılığa gələn digər dövlətlər tərəfindən hər hansı sonrakı qəbulu tələb etmir.

2. Danışıqlarda iştirak edən dövlətlərin məhdud sayından və müqavilənin obyekt və məqsədindən müqavilənin bütün tərəflər arasında bütöv şəkildə tətbiq edilməsinin hər bir tərəfin müqavilənin onun üçün məcburiliyinə razılığı üçün əhəmiyyətli şərt olduğu göründüyü halda, bütün tərəflərin bu qeyd-şərti qəbul etməsi zəruridir.

3. Müqavilə beynəlxalq təşkilatın təsisedici aktı olduğu və bu aktda başqa cür nəzərdə tutulmadığı halda, qeyd-şərt bu təşkilatın səlahiyyətli orqanları tərəfindən qəbul edilməlidir.

4. Əvvəlki bəndlərin tətbiq dairəsinə düşməyən hallarda və müqavilədə başqa cür nəzərdə tutulmursa:

a) qeyd-şərtin digər razılığa gələn dövlət tərəfindən qəbul edilməsi, müqavilə qeyd-şərt edən və onu qəbul edən dövlətlər üçün qüvvədə olduğu təqdirdə və ya onun qüvvəyə mindiyi tarixdə, qeyd-şərti irəli sürən dövləti onu qəbul edən dövlətə münasibətdə bu müqavilənin tərəfinə çevirir;

b) qeyd-şərtə etiraz edən dövlət tərəfindən aydın şəkildə əks niyyətin ifadə edilmədiyi təqdirdə, qeyd-şərtə digər razılığa gələn dövlət tərəfindən etirazın edilməsi müqavilənin etiraz edən və qeyd-şərti irəli sürən dövlətlər arasında qüvvəyə minməsinə əngəl yaratmır;

c) dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə edən və qeyd-şərti ehtiva edən əməl digər razılığa gələn dövlətlərdən ən azından birinin bu qeyd-şərti qəbul etdiyi andan qüvvəyə minir.

5. 2 və 4-cü bəndlərin məqsədləri üçün və müqavilədə başqa hal nəzərdə tutulmadığı təqdirdə, hansı halın daha sonraya təsadüf etməsindən asılı olaraq dövlətin qeyd-şərt barədə məlumatlandırıldığı tarixdən sonrakı on iki ay müddəti bitənədək və ya dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığını bildirdiyi tarixədək bu dövlət qeyd-şərtə heç bir etiraz irəli sürmədiyi halda, qeyd-şərt həmin dövlət tərəfindən qəbul edilmiş hesab olunur.

Maddə 21. **Qeyd-şərtlərin və qeyd-şərtlərə qarşı etirazların hüquqi nəticələri**

1. 19, 20 və 23-cü maddələrə uyğun olaraq digər tərəfə münasibətdə irəli sürülən qeyd-şərt:

a) qeyd-şərti edən dövlət üçün həmin digər tərəflə münasibətlərində müqavilənin qeyd-şərtə aid müddəalarını qeyd-şərtin əhatəsi çərçivəsində dəyişir; və

b) həmin digər tərəf üçün qeyd-şərti edən dövlət ilə münasibətlərində həmin müddəaları eyni dərəcədə dəyişir.

2. Qeyd-şərt öz aralarındakı münasibətlərdə müqavilənin digər tərəfləri üçün müqavilənin müddəalarını dəyişmir.

3. Qeyd-şərtə qarşı çıxan dövlət müqavilənin özü ilə qeyd-şərti edən dövlət arasında qüvvəyə minməsinə etiraz etmədiyi təqdirdə, qeyd-şərtə aid müddəalar bu iki dövlət arasında qeyd-şərtin əhatəsi çərçivəsində tətbiq edilmir.

Maddə 22. **Qeyd-şərtlərin və qeyd-şərtlərə qarşı etirazların geriyə götürülməsi**

1. Müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, qeyd-şərt istənil vaxt geriyə götürülə bilər və qeyd-şərtin geriyə götürülməsi üçün onu qəbul edən dövlətin razılığı tələb olunmur.

2. Müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, qeyd-şərtə qarşı etiraz istənilən vaxt geriyə götürülə bilər.

3. Müqavilədə başqa cür nəzərdə tutulmadığı və ya başqa cür razılığın müəyyən edilmədiyi təqdirdə:

a) qeyd-şərtin geriyə götürülməsi digər razılığa gələn dövlətə münasibətdə yalnız sonuncu tərəfindən bu barədə bildirişin alınmasından sonra qüvvəyə minir;

b) qeyd-şərtə qarşı etirazın geriyə götürülməsi yalnız qeyd-şərti tərtib edən dövlətin bu barədə bildirişi almasından sonra qüvvəyə minir.

Maddə 23. **Qeyd-şərtlərə aid olan prosedur**

1. Qeyd-şərt, qeyd-şərtin aydın şəkildə qəbul olunması və qeyd-şərtə qarşı etiraz yazılı şəkildə tərtib edilməli və razılığa gələn dövlətlərə və müqavilənin tərəfi olmaq hüququna malik olan digər dövlətlərə çatdırılmalıdır.

2. Qeyd-şərt ratifikasiya, qəbul və ya təsdiq edilməli olan müqavilənin imzalanması zamanı tərtib edildiyi təqdirdə, bu qeydşərt onu irəli sürən dövlət tərəfindən müqavilənin onun üçün məcburiliyinə razılığının bildirilməsi zamanı rəsmən təsdiq edilməlidir. Belə olduğu halda, qeyd-şərt təsdiq edildiyi gün edilmiş hesab olunur.

3. Qeyd-şərtin təsdiq olunmasına qədər qeyd-şərtin aydın şəkildə qəbul olunması və ya ona etiraz öz-özlüyündə təsdiq tələb etmir.

4. Qeyd-şərtin və ya qeyd-şərtə qarşı etirazın geriyə götürülməsi yazılı şəkildə həyata keçirilməlidir.

Bölmə 3
## MÜQAVİLƏLƏRİN QÜVVƏYƏ MİNMƏSİ VƏ ONLARIN MÜVƏQQƏTİ TƏTBİQİ

Maddə 24. **Qüvvəyə minmə**

1. Müqavilə orada nəzərdə tutulmuş və ya danışıqlarda iştirak edən dövlətlərin razılaşdırdığı qaydada və tarixdə qüvvəyə minir.

2. Bu cür müddəa və ya razılıq olmadığı təqdirdə, müqavilə danışıqlarda iştirak edən bütün dövlətlərin müqavilənin onlar üçün məcburiliyinə razılıqlarını bildirdikləri zaman qüvvəyə minir.

3. Dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı müqavilənin qüvvəyə minməsindən sonrakı hər hansı tarixdə bildirildiyi zaman, müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, müqavilə bu dövlətə münasibətdə həmin tarixdə qüvvəyə minir.

4. Müqavilənin onun mətninin autentikliyinin müəyyən edilməsini, dövlətlərin müqavilənin onlar üçün məcburiliyinə dair razılıqlarının bildirilməsini, müqavilənin qüvvəyəminmə qaydasını və ya tarixini, qeyd-şərtləri, depozitarinin funksiyalarını və müqavilənin qüvvəyə minməsinə qədər labüd olaraq yaranan digər məsələləri tənzimləyən müddəaları müqavilənin mətninin qəbul olunması anından tətbiq olunur.

Maddə 25. **Müvəqqəti tətbiq**

1. Müqavilə və ya müqavilənin bir hissəsi onun qüvvəyə minməsinə qədər aşağıdakı hallarda müvəqqəti olaraq tətbiq olunur:

a) müqavilədə bu cür nəzərdə tutulur; və ya

b) danışıqlarda iştirak edən dövlətlər hər hansı digər qaydada bu cür razılığa gəlmişlər.

2. Müqavilədə başqa cür nəzərdə tutulmadığı və ya danışıqlarda iştirak edən dövlətlər başqa cür razılığa gəlmədiyi təqdirdə, dövlət aralarında müqavilənin müvəqqəti olaraq tətbiq edildiyi digər dövlətləri müqavilənin tərəfi olmamaq niyyəti barədə məlumatlandırarsa, müqavilənin və ya müqavilənin bir hissəsinin bu dövlətə münasibətdə müvəqqəti tətbiqi dayanır.

Hissə III
## MÜQAVİLƏLƏRƏ ƏMƏL EDİLMƏSİ, TƏTBİQİ VƏ TƏFSİRİ
### Bölmə 1
### MÜQAVİLƏLƏRƏ ƏMƏL EDİLMƏSİ

Maddə 26. ***"Pacta sunt servanda"***

Qüvvədə olan hər bir müqavilə onun tərəfləri üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir.

Maddə 27. **Daxili hüquq və müqavilələrə əməl edilməsi**

Tərəf müqavilənin yerinə yetirilməməsinə bəraət olaraq daxili qanunvericiliyinin müddəalarına istinad edə bilməz. Bu qayda 46-cı maddəyə xələl gətirmədən qüvvədədir.

Bölmə 2

## MÜQAVİLƏLƏRİN TƏTBİQİ

Maddə 28. **Müqavilələrin geriyə qüvvəsinin yolverilməzliyi**

Müqavilədən digər niyyətin anlaşılmadığı və ya başqa cür müəyyən olunmadığı təqdirdə, müqavilənin müddəaları müqavilənin onun tərəfi üçün qüvvəyə minməsinə qədər baş verən hər hansı əməl və ya fakta və ya mövcudluğunu dayandıran hər hansı vəziyyətə münasibətdə həmin tərəf üçün məcburi deyildir.

Maddə 29. **Müqavilələrin ərazi üzrə tətbiq dairəsi**

Müqavilədən digər niyyətin anlaşılmadığı və ya başqa cür müəyyən olunmadığı təqdirdə, müqavilə hər bir tərəf üçün onun bütün ərazisinə münasibətdə məcburidir.

Maddə 30. **Eyni məsələyə aid olan ardıcıl surətdə bağlanılmış müqavilələrin tətbiqi**

1. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 103-cü maddəsinə əməl olunmaqla eyni məsələyə aid olan ardıcıl surətdə bağlanılmış müqavilələrin tərəf dövlətlərinin hüquq və vəzifələri aşağıdakı bəndlərə uyğun olaraq müəyyən olunur.

2. Müqavilədə onun əvvəlki və ya sonrakı müqaviləyə uyğunluğu və ya onun həmin müqavilələrə zidd hesab oluna bilməzliyi müəyyən edildiyi təqdirdə, həmin digər müqavilənin müddəaları üstün qüvvəyə malikdir.

3. Əvvəlki müqavilənin bütün tərəfləri eyni zamanda sonrakı müqavilənin tərəfləri olduğu və əvvəlki müqavilənin qüvvəsi 59-cu maddəyə uyğun olaraq ləğv edilmədiyi və ya dayandırılmadığı təqdirdə, əvvəlki müqavilə yalnız onun müddəalarının sonrakı müqavilənin müddəalarına uyğun gəldiyi dərəcədə tətbiq edilir.

4. Sonrakı müqavilənin tərəfləri əvvəlki müqavilənin bütün tərəflərindən ibarət olmadığı təqdirdə:

a) hər iki müqavilənin tərəfi olan dövlətlər arasındakı münasibətlərdə - 3-cü bənddə qeyd olunan qayda tətbiq edilir;

b) hər iki müqavilənin tərəfi olan dövlətlə bu müqavilələrdən yalnız birinin tərəfi olan dövlət arasındakı münasibətlərdə - hər iki dövlətin tərəf olduğu müqavilə onların qarşılıqlı hüquq və vəzifələrini tənzimləyir.

5. 4-cü bənd 41-ci maddəyə və ya 60-cı maddəyə uyğun olaraq müqavilənin ləğv edilməsi və va müqavilənin qüvvəsinin dayandırılması ilə bağlı hər hansı məsələyə və ya hər hansı dövlətin digər müqaviləyə əsasən başqa dövlət qarşısındakı öhdəliklərinə zidd olan müqavilənin bağlanılması və va tətbiqindən həmin dövlət üçün yaranan məsuliyyətlə bağlı hər hansı məsələyə xələl gətirmədən tətbiq olunur.

Bölmə 3

## MÜQAVİLƏLƏRİN TƏFSİRİ

Maddə 31. **Təfsirin ümumi qaydası**

1. Müqavilə onun terminlərinin kontekstə əsasən verdiyi adi mənaya uyğun olaraq və onun obyekt və məqsədi fonunda vicdanla təfsir edilməlidir.

2. Müqavilənin təfsirinin məqsədləri üçün kontekst müqavilənin preambulası və əlavələri də daxil olmaqla mətndən və aşağıdakılardan ibarətdir:

a) bütün tərəflər arasında müqavilənin bağlanılması ilə əlaqədar olaraq əldə edilmiş, müqaviləyə aid olan istənilən razılaşma;

b) bir və ya bir neçə tərəfin müqavilənin bağlanılması ilə əlaqədar olaraq tərtib etdiyi və digər tərəflərin müqaviləyə aid olan sənəd qismində qəbul etdiyi istənilən sənəd.

3. Kontekstlə yanaşı aşağıdakılar nəzərə alınır:

a) müqavilənin təfsirinə və ya onun müddəalarının tətbiqinə dair tərəflər arasındakı hər hansı sonrakı razılaşma;

b) müqavilənin tətbiqi çərçivəsində tərəflər arasında müqavilənin təfsirinə dair razılaşmanı təşkil edən hər hansı sonrakı təcrübə;

c) beynəlxalq hüququn tərəflər arasındakı münasibətlərdə tətbiq edilə bilən hər hansı müvafiq qaydaları.

4. Anlayışa xüsusi məna tərəflərin bu cür niyyətinin müəyyən olunduğu təqdirdə verilir.

Maddə 32. **Əlavə təfsir vasitələri**

31-ci maddənin tətbiqindən irəli gələn mənanı təsdiq etmək və ya 31-ci maddəyə uyğun olaraq təfsir aşağıdakıları ifadə edərkən mənanı müəyyən etmək məqsədilə əlavə təfsir vasitələrinə, o cümlədən müqavilənin hazırlıq materiallarına və onun bağlanılması vəziyyətinə müraciət etmək olar:

a) mənanı ikimənalı və ya qeyri-müəyyən edir; və ya

b) aşkar şəkildə məntiqsiz və ya ağlabatan olmayan nəticəyə səbəb olur.

Maddə 33. **Autentikliyi iki və ya daha çox dildə müəyyən edilmiş müqavilələrin təfsiri**

1. Fikir ayrılığı yarandığı təqdirdə, ayrıca mətnin üstün qüvvəyə malik olmasını müqavilədə nəzərdə tutulduğu və ya tərəflərin bu barədə razılığa gəldiyi hallar istisna olmaqla, müqavilənin autentikliyi iki və ya daha çox dildə müəyyən olunduğu zaman onun mətni hər bir dildə bərabər dərəcədə autentikdir.

2. Müqavilənin mətninin autentikliyinin müəyyən olunduğu dillərdən birindən fərqli dildə olan variantı yalnız müqavilədə bu cür nəzərdə tutulduğu və ya tərəflərin bu barədə razılığa gəldiyi hallarda autentik mətn hesab edilir.

3. Müqavilənin anlayışlarının hər bir autentik mətndə eyni mənaya malik olması güman olunur.

4. 1-ci bəndə uyğun olaraq ayrıca mətnin üstün qüvvəyə malik olduğu hallar istisna olmaqla, autentik mətnlərin müqayisəsi zamanı yaranan və 31 və 32-ci maddələrin tətbiqi ilə aradan qaldırıla bilməyən məna fərqləri zamanı müqavilənin obyekt və məqsədi nəzərə alınmaqla bu mətnlərlə ən yaxşı uyuşan məna qəbul olunur.

## Bölmə 4
## MÜQAVİLƏLƏR VƏ ÜÇÜNCÜ DÖVLƏTLƏR

Maddə 34. **Üçüncü dövlətlərə aid olan ümumi qayda**

Müqavilə üçüncü dövlət üçün onun razılığı olmadan öhdəlik və ya hüquqlar yaratmır.

Maddə 35. **Üçüncü dövlətlər üçün öhdəliklər nəzərdə tutan müqavilələr**

Müqavilənin tərəflərinin müqavilənin müddəasını öhdəlik yaradan vasitə kimi nəzərdə tutduqları və üçüncü dövlət yazılı formada bu öhdəliyi aydın şəkildə öz üzərinə götürdüyü təqdirdə, bu müddəa əsasında həmin üçüncü dövlət üçün göstərilən öhdəlik yaranır.

Maddə 36. **Üçüncü dövlətlər üçün hüquqlar nəzərdə tutan müqavilələr**

1. Müqavilənin tərəflərinin müqavilənin müddəası vasitəsilə üçüncü dövlətə və ya onun aid olduğu dövlətlər qrupuna, yaxud bütün dövlətlərə hər hansı hüququn verilməsini nəzərdə tutduqları və üçüncü dövlət buna öz razılığını verdiyi təqdirdə, bu müddəa əsasında həmin üçüncü dövlət üçün göstərilən hüquq yaradılır. Müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, əks mövqe bildirilməyənə qədər dövlətin bu cür razılığı verdiyi güman olunur.

2. 1-ci bəndə uyğun olaraq hüquqdan istifadə edən dövlət bu hüquqdan istifadə üzrə müqavilədə nəzərdə tutulmuş və ya müqaviləyə əsasən müəyyən olunmuş şərtlərə əməl edir.

Maddə 37. **Üçüncü dövlətlərin öhdəlik və hüquqlarının ləğv edilməsi və ya dəyişdirilməsi**

1. Üçüncü dövlət üçün 35-ci maddəyə əsasən öhdəliyin yarandığı zaman bu dövlətin və müqavilənin tərəflərinin başqa cür razılığa gəlmədiyi təqdirdə, bu öhdəlik yalnız onların razılığı əsasında ləğv edilə və ya dəyişdirilə bilər.

2. Üçüncü dövlət üçün 36-cı maddəyə əsasən hüququn yarandığı zaman bu hüququn həmin üçüncü dövlətin razılığı olmadan ləğv edilə və ya dəyişdirilə bilməzliyinin nəzərdə tutulduğu müəyyənləşdirildiyi təqdirdə, tərəflər bu hüququ ləğv edə və ya dəyişdirə bilməzlər.

Maddə 38. **Müqavilədə əks olunan qaydaların sonradan beynəlxalq adət əsasında üçüncü dövlətlər üçün məcburi olması**

34-37-ci maddələr hər hansı müqavilədə əks olunan qaydanın sonradan beynəlxalq hüququn tanınmış adət qaydası kimi üçüncü dövlət üçün məcburi olmasını istisna etmir.

## Hissə IV
## MÜQAVİLƏLƏRƏ DÜZƏLİŞLƏR VƏ MÜQAVİLƏLƏRİN DƏYİŞDİRİLMƏSİ

Maddə 39. **Müqavilələrdə düzəlişlərə dair ümumi qayda**

Müqaviləyə tərəflər arasında razılaşma əsasında düzəlişlər edilə bilər. Müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, bu cür razılaşmaya münasibətdə II hissədə qeyd edilmiş qaydalar tətbiq edilir.

Maddə 40. **Çoxtərəfli müqavilələrə düzəlişlərin edilməsi**

1. Müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, çoxtərəfli müqavilələrə düzəlişlərin edilməsi aşağıdakı bəndlərlə tənzimlənir.

2. Çoxtərəfli müqaviləyə düzəlişlərin edilməsi ilə bağlı bütün tərəflər arasındakı münasibətlərə aid olan hər bir təklif barədə bütün razılığa gələn dövlətlər məlumatlandırılmalıdırlar. Bu dövlətlərin hər biri aşağıdakılarda iştirak etmək hüququna malikdir:

a) bu cür təklifə münasibətdə görülməli olan tədbir barədə qərarın qəbul edilməsində;

b) müqaviləyə düzəlişin edilməsi üzrə danışıqlarda və hər hansı razılaşmanın bağlanılmasında.

3. Müqavilənin tərəfi olmaq hüququna malik olan hər bir dövlət həmçinin düzəliş edilmiş müqavilənin tərəfi olmaq hüququ ilə təmin olunmalıdır.

4. Düzəlişlərin edilməsi barədə razılaşma artıq müqavilənin tərəfi olan, lakin düzəlişlərin edilməsi barədə razılaşmanın tərəfi olmayan heç bir dövlət üçün məcburi deyildir; bu dövlətə münasibətdə 30-cu maddənin 4-cü bəndinin "b" yarımbəndi tətbiq edilir.

5. Düzəlişlərin edilməsi barədə razılaşmanın qüvvəyə minməsindən sonra müqavilənin tərəfi olan hər hansı dövlət bu dövlət tərəfindən başqa niyyətin bildirilmədiyi təqdirdə:

a) düzəlişlərin edildiyi müqavilənin tərəfi hesab edilir; və

b) düzəlişlərin edilməsi barədə razılaşmanın məcburiliyinə razılığını bildirməyən tərəfə münasibətdə düzəliş edilməmiş müqavilənin tərəfi hesab olunur.

Maddə 41. **Çoxtərəfli müqavilələrin dəyişdirilməsi barədə yalnız müəyyən tərəflər arasındakı razılaşmalar**

1. Çoxtərətli müqavilənin iki və ya daha çox tərəfi aşağıdakı hallarda öz aralarındakı münasibətlərdə bu müqavilənin dəyişdirilməsi barədə razılaşma bağlaya bilərlər:

a) bu cür dəyişikliyin mümkünlüyü həmin müqavilədə nəzərdə tutulur; və ya

b) göstərilən dəyişiklik müqavilədə qadağan edilmir və

(i) digər tərəflərin müqavilə üzrə öz hüquqlarından istifadə etməsinə və ya öz öhdəliklərini icra etməsinə təsir etmir;

(ii) ümumilikdə müqavilənin obyekt və məqsədinin səmərəli şəkildə həyata keçirilməsi baxımından geri çəkilməsi yolverilməz olan müddəaya aid deyildir.

2. 1-ci bəndin "a" yarımbəndinin tətbiq dairəsinə düşən halda, müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, göstərilən tərətlər bu razılaşmanı bağlamağa dair niyyəti və müqaviləyə bu razılaşma ilə nəzərdə tutulan dəyişiklik barədə digər tərəfləri məlumatlandırırlar.

## Hissə V
## MÜQAVİLƏLƏRİN ETİBARSIZLIĞI, LƏĞV EDİLMƏSİ VƏ QÜVVƏSİNİN DAYANDIRILMASI

### Bölmə 1
### ÜMUMİ MÜDDƏALAR

Maddə 42. **Müqavilələrin etibarlılığı və qüvvədə qalması**

1. Müqavilənin etibarlılığına və ya dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığına qarşı iddia yalnız hazırkı Konvensiyanın tətbiqi əsasında irəli sürülə bilər.

2. Müqavilənin ləğv edilməsi, onun denonsasiyası və ya hər hansı tərəfin müqavilədən çıxması yalnız bu müqavilənin və ya hazırkı Konvensiyanın müddəalarının tətbiqi nəticəsində həyata keçirilə bilər. Eyni qayda müqavilənin qüvvəsinin dayandırılmasına da tətbiq edilir.

Maddə 43. **Müqavilədən asılı olmayaraq beynəlxalq hüquqa əsasən qüvvədə olan öhdəliklər**

Hazırkı Konvensiyanın və ya müqavilənin müddəalarının tətbiqi nəticəsində müqavilənin etibarsızlığı, ləğv edilməsi və ya denonsasiyası, tərəflərdən birinin müqavilədən çıxması və ya onun qüvvəsinin dayandırılması hər hansı dövlətin bu müqavilədə əks olunan və həmin müqavilədən asılı olmayaraq beynəlxalq hüquq əsasında tənzimlənən hər hansı öhdəliyinin yerinə yetirilməsi üzrə vəzifəsinə heç bir qaydada xələl gətirmir.

Maddə 44. **Müqavilə müddəalarının bölünməsi**

1. Müqavilədə başqa cür nəzərdə tutulmadığı və ya tərəflər başqa cür razılığa gəlmədiyi təqdirdə, tərəfin müqavilədə nəzərdə tutulmuş və ya 56-cı maddədən irəli gələn, müqaviləni denonsasiya etmək, müqavilədən çıxmaq və ya onun qüvvəsini dayandırmaq hüququ yalnız bütün müqaviləyə münasibətdə tətbiq oluna bilər.

2. Müqavilənin etibarsızlığı, ləğv edilməsi, müqavilədən çıxma və ya onun qüvvəsinin dayandırılması üçün hazırkı Konvensiyada tanınan hər hansı əsasa aşağıdakı bəndlərdə və ya 60-cı maddədə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız bütün müqaviləyə münasibətdə istinad etmək olar.

3. Bu əsas yalnız ayrı-ayrı müddəalara aid olduğu təqdirdə, ona yalnız həmin müddəalara münasibətdə aşağıdakı hallarda istinad etmək olar:

a) qeyd olunan müddəalar onların tətbiqi baxımından müqavilənin digər hissəsindən ayrıla bilir;

b) bu müddəaların qəbulunun digər tərəfin və ya tərəflərin bütövlükdə müqavilənin onlar üçün məcburiliyinə razılığının əhəmiyyətli əsasını təşkil etmədiyi müqavilədən aydın olur və ya bu başqa cür müəyyən olunub;

c) müqavilənin qalan hissəsinin həyata keçirilməsinin davam etdirilməsi ədalətsiz olmayacaqdır.

4. 49-cu və 50-ci maddələrin tətbiq dairəsinə düşən hallarda, aldatma və ya korrupsiyaya istinad etmək hüququna malik olan dövlət bunu ya bütün müqaviləyə münasibətdə, ya da 3-cü bəndə əsasən yalnız ayrı-ayrı müddəalara münasibətdə edə bilər.

2. 51, 52 və 53-cü maddələrin tətbiq dairəsinə düşən hallarda müqavilənin müddəalarının bölünməsinə yol verilmir.

Maddə 45. **Müqavilənin etibarsızlığı, ləğv edilməsi, müqavilədən çıxma və ya onun qüvvəsinin dayandırılması əsasına istinad etmək hüququnun itirilməsi**

Dövlət aşağıdakı hallarda faktlar ona məlum olduqdan sonra 46-50-ci maddələr və ya 60 və 62-ci maddələrə əsasən müqavilənin etibarsızlığı, ləğv edilməsi, müqavilədən çıxma və ya onun qüvvəsinin dayandırılması üçün hər hansı əsasa istinad etmək hüququna malik deyildir:

a) dövlət müvafiq haldan asılı olaraq müqavilənin etibarlı olmasına və ya qüvvədə qalmasına, yaxud fəaliyyətini davam etdirməsinə aydın şəkildə razılığım ifadə etmişdir; və ya

b) dövlətin davranışı əsasında onun müvafiq haldan asılı olaraq müqavilənin etibarlı olmasına və ya onun qüvvədə və ya fəaliyyətdə qalmasına etiraz etmədiyi hesab edilməlidir.

Bölmə 2
## MÜQAVİLƏLƏRİN ETİBARSIZLIĞI

Maddə 46. **Dövlətdaxili hüququn müqavilələri bağlamaq səlahiyyətinə dair müddəaları**

1. Pozuntunun aşkar şəkildə olmadığı və dövlətin daxili hüququnun xüsusi əhəmiyyət kəsb edən qaydasına aid olmadığı təqdirdə, dövlət müqavilənin onun üçün məcburiliyinə razılığının dövlətdaxili hüququnun müqavilələr bağlamaq səlahiyyətinə dair hər hansı müddəasının pozulması nəticəsində ifadə edilməsi faktına onun razılığının etibarsızlığına əsas kimi istinad edə bilməz.

2. Aşkar şəkildə olan pozuntu dedikdə bu məsələdə adi təcrübəyə uyğun olaraq və vicdanla davranan hər bir dövlət üçün obyektiv olaraq aydın olan pozuntu başa düşülür.

Maddə 47. **Dövlətin razılığını bildirmək səlahiyyətinə dair xüsusi məhdudiyyətlər**

Dövlətin ayrıca müqavilənin onun üçün məcburiliyinə razılığını ifadə etmək üçün hər hansı nümayəndənin səlahiyyəti xüsusi məhdudiyyətlə şərtləndiyi halda, onun bu cür razılığı ifadə etməsindən qabaq danışıqlarda iştirak edən digər dövlətlər bu məhdudiyyət barədə məlumatlandırılmadığı təqdirdə, onun bu məhdudiyyətə əməl etməməsi onun tərəfindən ifadə edilmiş razılığın etibarsızlığına əsas kimi istinad edilə bilməz.

Maddə 48. **Səhv**

1. Müqavilədəki səhv dövlətin müqavilənin bağlanılması zamanı mövcud olduğunu zənn etdiyi və bu dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığının əhəmiyyətli əsasını təşkil etdiyi fakt və ya vəziyyətlə bağlı olduğu təqdirdə, həmin dövlət bu səhvə müqavilənin onun üçün məcburiliyinə razılığının etibarsızlığına əsas kimi istinad edə bilər.

2. Göstərilən dövlət öz davranışı ilə bu səhvin yaranmasına səbəb olduğu və ya vəziyyət həmin dövlətin mümkün səhvdən xəbərdar olmasını şərtləndirdiyi halda, 1-ci bənd şamil olunmur.

3. Yalnız müqavilənin mətninin ifadə tərzinə aid olan səhv onun hüquqi qüvvəsinə təsir etmir və belə halda 79-cu maddə tətbiq olunur.

Maddə 49. **Aldatma**

Dövlət danışıqlarda iştirak edən digər dövlətin aldadıcı davranışı nəticəsində müqaviləni bağlamağa sövq edildiyi təqdirdə, həmin dövlət bu aldatma halına müqavilənin onun üçün məcburiliyinə razılığının etibarsızlığlna əsas kimi istinad edə bilər.

Maddə 50. **Dövlət nümayəndəsinin korrupsiyası**

Dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığının ifadəsi danışıqlarda iştirak edən digər dövlət tərəfindən onun nümayəndəsinin birbaşa və ya dolayı yolla korrupsiyası ilə əldə edildiyi təqdirdə, həmin dövlət bu korrupsiya halına müqavilənin onun üçün məcburiliyinə razılığının etibarsızlığına əsas kimi istinad edə bilər.

Maddə 51. **Dövlətin nümayəndəsinin məcbur edilməsi**

Dövlətin nümayəndəsinə qarşı yönəlmiş əməl və təhdidlər ilə bu nümayəndəni məcbur etmə yolu ilə əldə edilmiş dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı heç bir hüquqi nəticə doğurmur.

Maddə 52. **Dövlətin güc tətbiqi və ya onunla təhdid ilə məcbur edilməsi**

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində əks olunan beynəlxalq hüququn prinsiplərinə zidd olaraq güc tətbiqi və ya onunla təhdid yolu ilə bağlanılan müqavilə heç bir hüquqi qüvvəyə malik deyildir.

Maddə 53. **Beynəlxalq ümumi hüququn imperativ normalarına *(“jus cogens ”)* zidd olan müqavilələr**

Bağlanılan zaman beynəlxalq ümumi hüququn imperativ normasına zidd olan müqavilə heç bir hüquqi qüvvəyə malik deyildir. Hazırkı Konvensiyanın məqsədləri üçün beynəlxalq ümumi hüququn imperativ norması dedikdə bütövlükdə beynəlxalq dövlətlər birliyi tərəfindən geri çəkilməsinə icazə verilməyən və yalnız beynəlxalq ümumi hüququn eyni xarakterli növbəti norması ilə dəyişdirilə bilən norma kimi qəbul olunan və tanınan norma başa düşülür.

Bölmə 3

## MÜQAVİLƏLƏRİN LƏĞV EDİLMƏSİ VƏ QÜVVƏSİNİN DAYANDIRILMASI

Maddə 54. **Müqavilənin öz müddəalarına və ya tərəflərin razılığına əsasən ləğv edilməsi və ya ondan çıxma**

Müqavilənin ləğv edilməsi və ya hər hansı tərəfin ondan çıxması aşağıdakı hallarda mümkündür:

a) müqavilənin müddəalarına uyğun olaraq; və ya

b) digər razılığa gələn dövlətlərlə məsləhətləşməklə bütün tərəflərin razılığı əsasında istənilən zaman.

Maddə 55. **Çoxtərəfli müqavilənin tərəflərinin müqavilənin qüvvəyə minməsi üçün zəruri olan saydan az olması**

Müqavilədə başqa hal nəzərdə tutulmadığı təqdirdə, çoxtərəfli müqavilə yalnız onun tərəflərinin sayının müqavilənin qüvvəyə minməsi üçün zəruri olan saydan az olması faktı səbəbindən ləğv olunmur.

Maddə 56. **Müqavilənin ləğv edilməsi, denonsasiyası və ya ondan çıxma barədə müddəaları olmayan müqavilənin denonsasiyası və ya ondan çıxma**

1. Ləğv edilməsi barədə müddəaları olmayan və denonsasiya və ya müqavilədən çıxmanı nəzərdə tutmayan müqavilənin, aşağıdakı hallar istisna olmaqla, denonsasiyasına və ya ondan çıxmağa yol verilmir:

a) tərəflərin denonsasiyanın və ya müqavilədən çıxmanın mümkünlüyünü qəbul etmək niyyətində olduqları müəyyən edilmişdir; və ya

b) denonsasiya və ya müqavilədən çıxma hüququnun mövcudluğunu müqavilənin xarakterindən güman etmək olar.

2. Tərəf 1-ci bəndə uyğun olaraq müqavilənı denonsasiya etmək və ya ondan çıxmaq niyyəti barədə ən azı on iki ay öncə məlumat verir.

Maddə 57. **Müqavilənin müddəalarına uyğun olaraq və ya tərəflərin razılığı əsasında müqavilənin qüvvəsinin dayandırılması**

Müqavilənin qüvvəsi aşağıdakı hallarda bütün tərəflərə və ya hər hansı ayrıca tərəfə münasibətdə dayandırıla bilər:

a) müqavilənin müddəalarına uyğun olaraq; və ya

b) digər razılığa gələn dövlətlərlə məsləhətləşməklə bütün tərəflərin razılığı əsasında istənilən zaman.

Maddə 58. **Yalnız bəzi tərəflər arasındakı razılaşma əsasında çoxtərəfli müqavilənin qüvvəsinin dayandırılması**

1. Çoxtərəfli müqavilənin iki və ya daha çox tərəfi aşağıdakı hallarda müvəqqəti olaraq və yalnız öz aralarındakı münasibətlərdə həmin müqavilənin müddəalarının qüvvəsinin dayandırılması barədə razılaşma bağlaya bilərlər:

a) bu cür dayandırmanın mümkünlüyü həmin müqavilədə nəzərdə tutulur; və ya

b) göstərilən dayandırma müqavilədə qadağan edilmir və .

i) digər tərəflərin müqavilə üzrə öz hüquqlarından istifadə etməsinə və ya öz öhdəliklərini icra etməsinə təsir etmir;

ii) müqavilənin obyekt və məqsədi ilə ziddiyyət təşkil etmir.

2. 1-ci bəndin “a” yarımbəndinin tətbiq dairəsinə düşən halda, müqavilədə başqa cür nəzərdə tutulmadığı təqdirdə, göstərilən tərəflər bu razılaşmanı bağlamağa dair niyyəti və müqavilənin qüvvəsini dayandırmaq niyyətində olduqları müddəaları barədə digər tərəfləri məlumatlandırırlar.

Maddə 59. **Növbəti müqavilənin bağlanılması nəticəsində müqavilənin ləğv edilməsi və ya qüvvəsinin dayandırılması**

1. Bütün tərəflərin eyni məsələ üzrə növbəti müqavilə bağladıqları zaman aşağıdakı hallarda müqavilə ləğv edilmiş hesab olunur:

a) tərəflərin bu məsələni növbəti müqavilə ilə tənzimləmək niyyətində olduqları həmin müqavilədən aydın olur və ya bu başqa cür müəyyən olunub; və ya

b) növbəti müqavilənin müddəaları əvvəlki müqavilənin müddəaları ilə o dərəcədə ziddiyyət təşkil edir ki, hər iki müqaviləni eyni zamanda tətbiq etmək mümkün deyildir.

2. Tərəflərin bu cür niyyətinin növbəti müqavilədən aydın olduğu və ya bunun başqa cür müəyyən olunduğu təqdirdə, əvvəlki müqavilə yalnız qüvvəsini dayandırmış hesab olunur.

Maddə 60. **Müqavilənin pozulması nəticəsində onun ləğv edilməsi və ya qüvvəsinin dayandırılması**

1. Tərəflərdən birinin ikitərəfli müqaviləni ciddi şəkildə pozması digər tərəfə bu pozuntuya müqaviləni ləğv etmək və ya onun qüvvəsini tam və ya qismən dayandırmağa əsas kimi istinad etmək hüququnu verir.

2. Tərəflərdən birinin çoxtərəfli müqaviləni ciddi şəkildə pozması aşağıdakı hüquqların yaranmasına səbəb olur:

a) digər tərəflər üçün - yekdilliklə qəbul edilmiş razılaşma əsasında müqavilənin qüvvəsini tam və ya qismən dayandırmaq və ya aşağıdakı qaydada ləğv etmək:

i) müqaviləni pozan dövlət və öz aralarındakı münasibətlərdə; və ya

ii) bütün tərəflər arasındakı münasibətlərdə;

b) pozuntu nəticəsində xüsusi zərər çəkmiş tərəf üçün - müqaviləni pozan dövlət və öz arasındakı münasibətlərdə müqavilənin qüvvəsini tam və ya qismən dayandırmaq üçün bu pozuntuya əsas kimi istinad etmək;

c) əgər müqavilənin xarakterinə görə müqavilənin tərəflərindən birinin müqavilənin müddəalarını ciddi şəkildə pozması gələcəkdə müqavilə üzrə öhdəliklərini yerinə yeritməsinə münasibətdə həmin müqavilənin hər bir tərəfinin vəziyyətini əsaslı şəkildə dəyişəcəksə, müqaviləni pozan dövlət istisna olmaqla, istənilən tərəf özünə münasibətdə müqavilənin qüvvəsini tam və ya qismən dayandırmaq üçün bu pozuntuya istinad etmək.

3. Hazırkı maddənin məqsədləri üçün müqavilənin ciddi pozulması aşağıdakılardan ibarətdir:

a) hazırkı Konvensiyanın yol vermədiyi şəkildə müqavilədən imtina edilməsi; və ya

b) müqavilənin obyekt və va məqsədinin həyata keçirilməsi üçün əhəmiyyətli olan müddəasının pozulması.

4. Yuxarıdakı bəndlər müqavilənin pozuntu halında tətbiq olunan hər hansı müddəasına xələl gətirmir.

5. 1-3-cü bəndlər əhalinin mühafizəsi ilə bağlı humanitar xarakterli müqavilələrdə əks olunan müddəalara, xüsusən də bu cür müqavilələrlə mühafizə olunan şəxslərə münasibətdə istənilən formada cəza tədbirlərini qadağan edən müddəalara şamil olunmur.

Maddə 61. **Sonradan yaranan icra mümkünsüzlüyü**

1. Tərəf müqavilənin həyata keçirilməsi üçün zəruri olan obyektin daimi olaraq itməsi və ya məhv olması səbəbindən müqavilənin icrasının mümkünsüzlüyünə müqavilənin ləğv edilməsi və ya ondan çıxmaq üçün əsas kimi istinad edə bilər. Bu cür mümkünsüzlük müvəqqəti olduğu təqdirdə, ona yalnız müqavilənin qüvvəsinin dayandırılmasına əsas kimi istinad etmək olar.

2. Müqavilənin icrasının mümkünsüzlüyü tərəfin ya həmin müqavilə üzrə öhdəliyini, ya da bu müqavilənin digər tərəfi qarşısındakı digər beynəlxalq öhdəliyini pozması nəticəsində yarandığı təqdirdə, həmin tərəf müqavilənin icrasının mümkünsüzlüyünə müqavilənin ləğv edilməsi, ondan çıxmaq və ya onun qüvvəsinin dayandırılmasına əsas kimi istinad edə bilməz.

Maddə 62. **Vəziyyətin köklü şəkildə dəyişməsi**

1. Müqavilənin bağlanılması zamanı mövcud olan vəziyyətə münasibətdə baş verən və tərəflərin öncədən nəzərdə tutmadığı köklü dəyişikliyə, aşağıdakı hallar istisna olmaqla, müqavilənin ləğv edilməsi və ya ondan çıxmaq üçün əsas kimi istinad etmək olmaz:

a) bu cür vəziyyətin mövcudluğu tərəflərin müqavilənin onlar üçün məcburiliyinə razılığının əhəmiyyətli əsasını təşkil etmişdir; və

b) vəziyyətin dəyişməsi nəticəsində müqavilə üzrə hələ də yerinə yetirilməli olan öhdəliklərin əhatəsi əhəmiyyətli dərəcədə dəyişir.

2. Aşağıdakı hallarda müqavilənin ləğv edilməsi və ya ondan çıxmaq üçün əsas kimi vəziyyətin köklü şəkildə dəyişməsinə istinad etmək olmaz:

a) müqavilə sərhəd müəyyən edir; və ya

b) vəziyyətin köklü şəkildə dəyişməsi ona istinad edən tərəfin ya həmin müqavilə üzrə öhdəliyini ya da müqavilənin hər hansı digər tərəfinə münasibətdə üzərinə götürdüyü digər beynəlxalq öhdəliyini pozmasının nəticəsidir.

3. Əvvəlki bəndlərə əsasən vəziyyətin köklü şəkildə dəyişməsinə müqavilənin ləğv edilməsi və ya ondan çıxmaq üçün əsas kimi istinad etmək hüququna malik olan tərəf həmin dəyişikliyə müqavilənin qüvvəsinin dayandırılması üçün də əsas kimi istinad edə bilər.

Maddə 63. **Diplomatik və ya konsulluq münasibətlərinin kəsilməsi**

Müqavilənin tətbiq edilməsi üçün diplomatik və ya konsulluq münasibətlərinin mövcudluğunun zəruri olduğu hallar istisna olmaqla, müqavilə tərəfləri arasında diplomatik və ya konsulluq münasibətlərinin kəsilməsi onlar arasında bu müqavilə əsasında qurulmuş hüquqi münasibətlərə təsir etmir.

Maddə 64. **Beynəlxalq ümumi hüququn yeni imperativ normasının** *("jus cogeııs")* **yaranması**

1.Beynəlxalq ümumi hüququn yeni imperativ norması yarandığı təqdirdə, bu norma ilə ziddiyyət təşkil edən istənilən mövcud müqavilə hüquqi qüvvəsini itirir və ləğv olunur.

Bölmə 4

**PROSEDUR**

Maddə 65. **Müqavilənin etibarsızlığına, ləğv edilməsinə, müqavilədən çıxmağa və ya qüvvəsinin dayandırılmasına münasibətdə yerinə yetirilməli olan prosedur**

1. Hazırkı Konvensiyanın müddəalarına uyğun olaraq müqavilənin onun üçün məcburiliyinə razılığındakı nöqsana və ya müqavilənin etibarlılığına iddianın irəli sürülməsi, müqavilənin ləğv edilməsi, müqavilədən çıxma və ya onun qüvvəsinin dayandırılması üçün hər hansı əsasa istinad edən tərəf öz tələbi barədə digər tərəflərə bildiriş göndərməlidir. Bu bildirişdə müqaviləyə münasibətdə görülməsi təklif olunan tədbir və onun səbəbləri göstərilir.

2. Xüsusi təcili hallar istisna olmaqla, bildirişin alındığı tarixdən üç aydan az olmayan müddət bitdikdən sonra heç bir tərəf etiraz irəli sürmədiyi təqdirdə, bildirişi göndərən tərəf təklif etdiyi tədbiri 67-ci maddədə müəyyən olunan qaydada görmək hüququna malikdir.

3. Lakin hər hansı digər tərəf etiraz irəli sürdüyü təqdirdə, tərəflər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 33-cü maddəsində müəyyən olunan vasitələrlə həllə nail olmağa çalışacaqlar.

4. Yuxarıdakı bəndlərin heç biri mübahisələrin həlli ilə bağlı tərəflər üçün məcburi olan qüvvədəki istənilən müddəalara əsasən tərəflərin hüquq və öhdəliklərinə təsir etmir.

5. 45-ci maddəyə xələl gətirmədən dövlətin 1-ci bənddə müəyyən edilən bildirişi öncədən göndərməməsi faktı ona bu cür bildirişi müqavilənin yerinə yetirilməsini tələb edən və ya onun pozulduğunu iddia edən digər tərəfə cavab olaraq göndərməyə mane olmur.

Maddə 66. **Məhkəmə araşdırması, arbitraj və barışıq proseduru**

65-ci maddənin 3-cü bəndinə uyğun olaraq, etirazın irəli sürüldüyü tarixdən sonrakı 12 ay müddət ərzində heç bir həllə nail olunmadığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) Tərəflərin mübahisəni arbitraja təqdim etmək üçün ümumi razılığa gəldiyi hallar istisna olmaqla, 53 və ya 64-cü maddənin tətbiqi və ya təfsiri üzrə mübahisənin tərəflərindən hər hansı biri qərar verilməsi üçün onu yazılı müraciət əsasında Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edə bilər;

b) hazırkı Konvensiyanın V hissəsinin istənilən digər maddələrinin tətbiqi və ya təfsiri üzrə mübahisənin tərəflərindən hər hansı biri Birləşmiş Millətlər Təşkilatının Baş katibinə

müvafiq müraciət ünvanlamaqla hazırkı Konvensiyanın əlavəsində qeyd edilən proseduru işə sala bilər.

Maddə 67. **Müqavilənin etibarsızlığı, ləğv edilməsi, müqavilədən çıxmaq və ya onun qüvvəsinin dayandırılmasının elan edilməsi üzrə sənədlər**

1. 65-ci maddənin 1-ci bəndində nəzərdə tutulan bildiriş yazılı şəkildə göndərilməlidir.

2. Müqavilənin və ya 65-ci maddənin 2 və ya 3-cü bəndlərinin müddəalarına uyğun olaraq müqavilənin etibarsızlığının, ləğv edilməsinin, müqavilədən çıxmanın və ya onun qüvvəsinin dayandırılmasının elan edilməsini nəzərdə tutan istənilən əməl digər tərəflərə çatdırılan sənəd vasitəsilə həyata keçirilir. Bu cür sənəd dövlət başçısı, hökumət başçısı və ya xarici işlər naziri tərəfindən imzalanmadığı təqdirdə, dövlətin bu sənədi təqdim edən nümayəndəsindən səlahiyyət sənədinin verilməsi tələb oluna bilər.

Maddə 68. **65 və 67-ci maddələrdə nəzərdə tutulan bildiriş və sənədlərin geri götürülməsi**

65 və 67-ci maddələrdə nəzərdə tutulan bildiriş və ya sənəd qüvvəyə minənədək istənilən zaman geriyə götürülə bilər.

## Bölmə 5
## MÜQAVİLƏNİN ETİBARSIZLIĞININ, LƏĞV EDİLMƏSİNİN VƏ YA QÜVVƏSİNİN DAYANDIRILMASININ NƏTİCƏLƏRİ

Maddə 69. **Müqavilənin etibarsızlığının nəticələri**

1. Hazırkı Konvensiyaya uyğun olaraq etibarsızlığı müəyyən edilən müqavilə heç bir hüquqi qüvvəyə malik deyildir. Etibarsız müqavilənin müddəalarının heç bir hüquqi qüvvəsi yoxdur.

2. Bu cür müqaviləyə əsasən icra əməllərinin artıq həyata keçirildiyi təqdirdə:

a) hər bir tərəf istənilən digər tərəfdən mümkün olduğu qədər öz qarşılıqlı münasibətlərində qeyd edilən əməllərin həyata keçirilmədiyi halda mövcud ola biləcəyi vəziyyətin yaradılmasını tələb edə bilər,

b) etibarsızlığa istinad edilməzdən öncə həyata keçirilən vicdanlı əməllər yalnız müqavilənin etibarsızlığı səbəbindən qeyri-qanuni hesab edilmir.

3. 49, 50, 51 və ya 52-ci maddələrin tətbiq dairəsinə düşən hallarda, 2-ci bənd aldatma, korrupsiya və ya məcbur etmə əməllərinə görə məsuliyyət daşıyan tərəfə münasibətdə şamil olunmur.

4. Hər hansı dövlətin çoxtərəfli müqavilənin onun üçün məcburiliyinə razılığının etibarsızlığı halında yuxarıda qeyd edilən qaydalar həmin dövlətlə müqavilənin tərəfləri arasındakı münasibətlərə tətbiq olunur.

Maddə 70. **Müqavilənin ləğv edilməsinin nəticələri**

1. Müqavilədə başqa cür nəzərdə tutulmadığı və ya tərəflər başqa cür razılığa gəlmədiyi təqdirdə, müqavilənin öz müddəalarına və ya hazırkı Konvensiyaya uyğun olaraq ləğv edilməsi:

a) tərəfləri müqaviləni həyata keçirməyi davam etməyə dair istənilən öhdəlikdən azad edir;

b) tərəflərin müqavilənin icrası nəticəsində onun ləğv edilməsindən öncə yaranan hər hansı hüququna, öhdəliyinə və ya hüquqi vəziyyətinə təsir etmir.

2. Dövlət çoxtərəfli müqaviləni denonsasiya etdiyi və ya ondan çıxdığı təqdirdə, 1-ci bənd bu dövlətlə müqavilənin digər tərəflərinin hər biri arasındakı münasibətlərə bu cür denonsasiya və ya müqavilədən çıxmanın qüvvəyə mindiyi tarixdən etibarən tətbiq olunur.

Maddə 71. **Beynəlxalq ümumi hüququn imperativ normasına zidd olan müqavilənin etibarsızlığının nəticələri**

1. Müqavilə 53-cü maddəyə əsasən heç bir hüquqi qüvvəyə malik olmadığı halda, tərəflər:

a) beynəlxalq ümumi hüququn imperativ normasına zidd olan hər hansı müddəa əsasında həyata keçirilmiş istənilən əməlin nəticələrini mümkün olduğu qədər aradan qaldırırlar; və

b) öz qarşılıqlı münasibətlərini beynəlxalq ümumi hüququn imperativ normasına uyğunlaşdırırlar.

2. Müqavilə 64-cü maddəyə əsasən hüquqi qüvvəsini itirdiyi və ləğv edildiyi halda, müqavilənin ləğv edilməsi:

a) tərəfləri müqaviləni həyata keçirməyi davam etməyə dair istənilən öhdəlikdən azad edir;

b) tərəflərin müqavilənin ləğv edilməsindən öncə onun icrası nəticəsində yaranan hər hansı hüququna, öhdəliyinə və ya hüquqi vəziyyətinə təsir etmir, lakin bu cür hüquq, öhdəlik və ya vəziyyətlər sonradan yalnız onların saxlanılmasının özözlüyündə beynəlxalq ümumi hüququn yeni imperativ normasına zidd olmadığı dərəcədə saxlanıla bilər.

Maddə 72. **Müqavilənin qüvvəsinin dayandırılmasının nəticələri**

1. Müqavilədə başqa cür nəzərdə tutulmadığı və ya tərəflər başqa cür razılığa gəlmədiyi təqdirdə, müqavilənin öz müddəalarına və ya hazırkı Konvensiyaya uyğun olaraq qüvvəsinin dayandırılması:

a) aralarında müqavilənin qüvvəsinin dayandırıldığı tərəfləri dayandırılma müddətində öz qarşılıqlı münasibətlərində müqaviləni həyata keçirməyə dair öhdəlikdən azad edir;

b) tərəflər arasında müqavilə əsasında qurulan hüquqi münasibətlərə başqa cür təsir etmir.

2. Dayandırılma müddətində tərəflər müqavilənin qüvvəsinin bərpa olunmasına mane ola biləcək əməllərdən çəkinirlər.

## Hissə VI
## DİGƏR MÜDDƏALAR

Maddə 73. **Dövlət varisliyi, dövlət məsuliyyəti və hərbi əməliyyatların başlanması halları**

Hazırkı Konvensiyanın müddəaları dövlətlərin varisliyi və ya dövlətin beynəlxalq məsuliyyəti, yaxud dövlətlər arasında hərbi əməliyyatların başlanması ilə əlaqədar müqaviləyə münasibətdə yarana biləcək heç bir məsələni öncədən müəyyən etmir.

Maddə 74. **Diplomatik və konsulluq münasibətləri və müqavilələrin bağlanılması**

Bir və ya bir neçə dövlət arasında diplomatik və ya konsulluq münasibətlərinin kəsilməsi və ya olmaması bu dövlətlər arasında müqavilələrin bağlanılmasına mane olmur. Müqavilənin bağlanılması özü-özlüyündə diplomatik və ya konsulluq münasibətləri sahəsindəki vəziyyətə təsir etmir.

Maddə 75. **Təcavüzkar dövlət halı**

Hazırkı Konvensiyanın müddəaları hər hansı dövlətin təcavüzü ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq görülmüş tədbirlər nəticəsində həmin təcavüzkar dövlət üçün müqavilə çərçivəsində yaranan heç bir öhdəliyə xələl gətirmir.

## Hissə VII
## DEPOZİTARİ, BİLDİRİŞLƏR, DÜZƏLİŞLƏR VƏ QEYDİYYAT

Maddə 76. **Müqavilələrin depozitarisi**

1. Müqavilənin depozitarisi danışıqlarda iştirak edən dövlətlər tərəfindən ya müqavilənin özündə və ya hər hansı digər qaydada təyin edilə bilər. Depozitari bir və ya bir neçə dövlət, beynəlxalq təşkilat və ya belə təşkilatın baş inzibati vəzifəli şəxsi ola bilər.

2. Müqavilənin depozitarisinin funksiyaları beynəlxalq xarakterlidir və depozitari onları yerinə yetirən zaman qərəzsiz fəaliyyət göstərməlidir. Xüsusən də müqavilənin bəzi tərəflər arasında qüvvəyə minməməsi və ya dövlətlə depozitari arasında sonuncunun öz vəzifələrini yerinə yetirməsi ilə bağlı fikir ayrılığının yaranması faktı bu öhdəliyə təsir etmir.

Maddə 77. **Depozitarilərin vəzifələri**

1. Müqavilədə başqa cür nəzərdə tutulmadığı və ya razılığa gələn dövlətlər başqa cür razılığa gəlmədiyi təqdirdə, depozitarinin vəzifələri xüsusən aşağıdakıları ehtiva edir:

a) depozitariyə verilmiş səlahiyyət sənədlərinin və müqavilənin mətninin əslinin saxlanılması;

b) mətnin əslinin təsdiq edilmiş nüsxələrinin hazırlanması və müqavilədə nəzərdə tutulduğu halda, əlavə dillərdə müqavilənin digər mətnlərinin hazırlanması, eləcə də onların tərəflərə və müqavilənin tərəfi olmaq hüququna malik olan dövlətlərə göndərilməsi;

c) müqaviləyə imzaların alınması və müqaviləyə aid digər sənədlərin, bildirişlərin və məlumatların alınması və saxlanılması;

d) imzanın və ya müqaviləyə aid hər hansı sənəd, bildiriş və ya məlumatların tam qaydasında və müvafiq formada olduğunun öyrənilməsi və zəruri olduğu təqdirdə, bu məsələnin müvafiq dövlətin diqqətinə çatdırılması;

e) tərəflərin və müqavilənin tərəfi olmaq hüququna malik olan dövlətlərin müqaviləyə aid əməllər, bildirişlər və məlumatlar barədə məlumatlandırılması;

f) müqavilənin tərəfi olmaq hüququna malik olan dövlətlərin müqavilənin qüvvəyə minməsi üçün zəruri olan sayda imzaların və ya ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma sənədlərinin alındığı və ya saxlanca verildiyi zaman məlumatlandırılması;

g) müqavilənin Birləşmiş Millətlər Təşkilatının Katibliyində qeydiyyatdan keçirilməsi;

h) hazırkı Konvensiyanın digər müddəaları ilə nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi.

2. Hər hansı dövlət ilə depozitari arasında sonuncunun vəzifələrinin yerinə yetirilməsi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, depozitari bu məsələni müqaviləni imzalayan

dövlətlərin və razılığa gələn dövlətlərin və ya müvafiq hallarda aidiyyəti beynəlxalq təşkilatın səlahiyyətli orqanının diqqətinə çatdırır.

Maddə 78. **Bildiriş və məlumatlar**

Müqavilə və ya Konvensiya ilə başqa hal nəzərdə tutulmadığı halda, hər hansı dövlət tərəfindən hazırkı Konvensiyaya uyğun olaraq göndərilən bildiriş və ya məlumat:

a) depozitari olmadığı təqdirdə, birbaşa olaraq nəzərdə tutulduğu dövlətə və ya depozitari olduqda sonuncuya göndərilir;

b) yalnız göndərildiyi dövlət tərəfindən alındıqdan və ya müvafiq haldan asılı olaraq depozitari tərəfindən alındıqdan sonra müvafiq dövlət tərəfindən göndərilmiş hesab olunur;

c) depozitariyə göndərildiyi təqdirdə, nəzərdə tutulduğu dövlət tərəfindən yalnız onun depozitari tərəfindən 77-ci maddənin 1-ci bəndinin "e" yarımbəndinə uyğun olaraq məlumatlandırılmasından sonra alınmış hesab olunur.

Maddə 79. **Müqavilələrin mətnlərində və ya təsdiq edilmiş nüsxələrində səhvlərin düzəldilməsi**

1. Müqavilənin mətninin autentikliyi müəyyən edildikdən sonra onu imzalayan dövlətlər və razılığa gələn dövlətlər onda səhvin olduğu barədə razılıq əldə etdiyi halda, onların səhvin düzəldilməsi üçün başqa vasitə tətbiq etmək barədə qərar verdiyi hallar istisna olmaqla, bu səhv aşağıdakı qaydada düzəldilir:

a) mətndə səhvin müvafiq qaydada düzəldilməsi və bu düzəlişin səlahiyyətli nümayəndələr tərəfindən müvafiq qaydada paraflanması yolu ilə;

b) razılaşdırılmış düzəlişi özündə əks etdirən sənədin və ya sənədlərin tərtib edilməsi, yaxud bu cür sənədlərin mübadiləsi yolu ilə;

c) bütün müqavilənin düzəldilmiş mətninin sənədin əslinə tətbiq olunmuş eyni prosedur əsasında tərtib edilməsi.

2. Depozitariyə saxlanca verilən müqavilə halında, depozitari müqaviləni imzalayan dövlətləri və razılığa gələn dövlətləri səhv və onu düzəltmək barədə təklif üzrə məlumatlandırır və bu təklifə etirazın bildirilməsi üçün müvafiq zaman çərçivəsini müəyyən edir. Bu zaman çərçivəsinin başa çatmasınadək:

a) heç bir etiraz bildirilmədiyi təqdirdə, depozitari mətnə düzəlişi daxil edir və paraflayır, mətnin düzəldilməsi barədə protokol tərtib edir və onun bir nüsxəsini tərəflərə və müqavilənin tərəfi olmaq hüququna malik olan dövlətlərə çatdırır;

b) hər hansı etiraz bildirildiyi təqdirdə, depozitari bu etirazı müqaviləni imzalayan dövlətlərə və razılığa gələn dövlətlərə çatdırır.

3. 1-ci və 2-ci bəndlərdə qeyd edilən qaydalar mətnin autentikliyinin iki və ya daha artıq dildə müəyyən edildiyi və müqaviləni imzalayan dövlətlərin və razılığa gələn dövlətlərin razılığı əsasında düzəldilməli olan uyğunsuzluq aşkar edildiyi halda da tətbiq olunur.

4. Müqaviləni imzalayan dövlətlər və razılığa gələn dövlətlər başqa cür qərar vermədiyi təqdirdə, düzəldilmiş mətn özündə səhvi ehtiva edən mətni *ab initio* əvəz edir.

5. Qeydiyyata alınmış müqavilənin mətninin düzəldilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Katibliyi məlumatlandırılır.

6. Səhv müqavilənin təsdiq edilmiş nüsxəsində aşkar edildiyi halda, depozitari səhvin düzəldilməsini ehtiva edən protokol tərtib edir və onun nüsxəsini müqaviləni imzalayan dövlətlərə və razılığa gələn dövlətlərə çatdırır.

Maddə 80. **Müqavilələrin qeydiyyatı və dərc edilməsi**

1. Müqavilələr qüvvəyə mindikdən sonra müvafiq haldan asılı olaraq qeydiyyata alınma və ya sənədlərdə saxlanılma və toplulara daxil edilmə, həmçinin nəşr edilmə məqsədilə Birləşmiş Millətlər Təşkilatının Katibliyinə göndərilir.

2. Depozitarinin təyin edilməsi ona əvvəlki bənddə qeyd edilən əməlləri həyata keçirmək səlahiyyətini verir.

Hissə VIII

## YEKUN MÜDDƏALAR

Maddə 81. **İmzalama**

Hazırkı Konvensiya Birləşmiş Millətlər Təşkilatının bütün üzv dövlətləri və ya ixtisaslaşdırılmış qurumların hər birinin və ya Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin üzvləri və ya Beynəlxalq Ədalət Məhkəməsinin Statutunun tərəfləri və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən hazırkı Konvensiyaya tərəf olmaq üçün dəvət olunmuş istənilən digər dövlət tərəfindən aşağıdakı qaydada imzalanmağa açıqdır: 30 noyabr 1969-cu il tarixinədək Avstriya Respublikasının Federal Xarici İşlər Nazirliyində, bu tarixdən sonra 30 aprel 1970-ci il tarixinədək isə Birləşmiş Millətlər Təşkilatının Nyu-York şəhərində yerləşən mərkəzi qərargahında.

Maddə 82. **Ratifikasiya**

Hazırkı Konvensiya ratifikasiya olunmalıdır. Ratifikasiya sənədləri Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir.

Maddə 83. **Qoşulma**

Hazırkı Konvensiya 81-ci maddədə qeyd edilən qruplardan birinə aid olan istənilən dövlət tərəfindən qoşulmaq üçün açıqdır. Qoşulma sənədləri Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir.

Maddə 84. **Qüvvəyə minmə**

1. Hazırkı Konvensiya otuz beşinci ratifikasiya və ya qoşulma sənədinin saxlanca verildiyi tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

2. Otuz beşinci ratifikasiya və ya qoşulma sənədinin saxlanca verildiyi tarixdən sonra bu Konvensiyam ratifikasiya edən və ya ona qoşulan hər bir dövlətə münasibətdə Konvensiya bu dövlətin ratifikasiya və ya qoşulma sənədini saxlanca verdiyi tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

Maddə 85. **Autentik mətnlər**

Çin, ingilis, fransız, rus və ispan dillərində mətnləri eyni dərəcədə autentik olan hazırkı Konvensiyanın əsli Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş və imzaları aşağıda göstərilən rəsmi nümayəndələr hazırkı Konvensiyanı imzaladılar.

Vyana şəhərində iyirmi üç may min doqquz yüz altmış doqquzuncu il tarixində tərtib edilmişdir.

**QOŞMA**

1. Birləşmiş Millətlər Təşkilatının Baş katibi peşəkar hüquqşünaslardan ibarət vasitəçilərin siyahısını tərtib edir və saxlayır. Bu məqsədlə Birləşmiş Millətlər Təşkilatına üzv olan və ya hazırkı Konvensiyaya tərəf olan hər bir dövlət iki vasitəçi təyin etməyə dəvət olunur və təyin olunan həmin şəxslərin adları göstərilən siyahını təşkil edəcəkdir. Vasitəçilərin, o cümlədən nəzərdə tutulmayan vakansiyanın tutulması məqsədilə təyin olunan vasitəçilərin səlahiyyət müddəti beş ildir və bu müddət yenilənə bilər. Səlahiyyət müddəti başa çatan vasitəçi növbəti bəndin müddəalarına uyğun olaraq onun üzərinə qoyulan vəzifələri yerinə yetirməyi davam etdirəcəkdir.

2. Baş katibə 66-cı maddəyə uyğun olaraq müraciət ünvanlandığı təqdirdə, o, mübahisəni aşağıdakı qaydada təşkil olunan barışdırıcı komissiyasına göndərir.

Mübahisə tərəflərindən biri olan dövlət və ya dövlətlər təyin edir:

a) 1-ci bənddə qeyd edilən siyahıdan və ya digər şəxslərdən seçilən bu dövlətin və ya bu dövlətlərdən birinin vətəndaşı olan bir vasitəçini; və

b) qeyd edilən siyahıya daxil edilən şəxslərdən seçilən bu dövlətin və ya bu dövlətlərdən heç birinin vətəndaşı olmayan bir vasitəçini.

Mübahisədə digər tərəf olan dövlət və ya dövlətlər eyni qayda ilə iki vasitəçini təyin edir. Tərəflərin seçdiyi dörd vasitəçi Baş katibin müvafiq müraciəti aldığı tarixdən sonrakı altmış gün ərzində təyin edilirlər.

Bu dörd vasitəçi onların sonuncusunun təyin olunduğu tarixdən sonrakı altmış gün ərzində adları siyahıya daxil edilmiş şəxslər sırasından seçilmiş beşinci vasitəçi təyin edəcək. Sonuncu vasitəçi sədr kimi fəaliyyət göstərəcəkdir.

Sədr və ya digər vasitəçilərdən hər hansı biri onların təyin edilməsi üçün yuxarıda nəzərdə tutulan müddət ərzində təyin edilmədiyi təqdirdə, onlar qeyd edilən müddətin başa çatmasından sonrakı altmış gün ərzində Baş katib tərəfindən təyin edilirlər. Sədr Baş katib tərəfindən ya adları siyahıya daxil edilmiş şəxslər ya da beynəlxalq hüquq komissiyasının üzvləri sırasından təyin edilə bilər. Təyinatların edilməli olduğu müddətlərdən hər biri mübahisə tərəflərinin razılığı ilə uzadıla bilər.

İstənilən vakansiya ilkin təyinat üçün nəzərdə tutulan qaydada tutulmalıdır.

3. Barışdırıcı Komissiya öz prosedurunu müəyyən edir. Komissiya mübahisə tərəflərinin razılığı əsasında istənilən tərəfi yazılı və ya şifahi şəkildə öz mövqeyini ona təqdim etməyə dəvət edə bilər. Komissiyanın qərarları və tövsiyələri beş üzvünün səs çoxluğu ilə qəbul edilir.

4. Komissiya mübahisənin dostcasına həllini asanlaşdıracaq istənilən tədbirləri mübahisə tərəflərinin diqqətinə çatdıra bilər.

5. Komissiya tərəfləri dinləyir, iddia və iradları nəzərdən keçirir və mübahisənin dostcasına həllinə nail olmaq məqsədilə tərəflərə təkliflər verir.

6. Komissiya təşkil edildiyi tarixdən sonrakı on iki ay ərzində öz hesabatını təqdim edir. Onun hesabatı Baş katibdə saxlanılır və mübahisə tərəflərinə təqdim edilir. Komissiyanın hesabatı, eləcə də faktlar və hüquqi məsələlərlə bağlı orada əks olunan nəticələr tərəflər üçün məcburi xarakter daşımır və mübahisənin dostcasına həllini asanlaşdırmaq məqsədilə nəzərdən keçirmək üçün tərəflərə təqdim olunan tövsiyələrdən savayı heç bir digər xarakterə malik deyildir.

7. Baş katib Komissiyaya ehtiyacı ola biləcək dəstək göstərir və xidmət vasitələrini təmin edir. Komissiyanın xərcləri Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.